# Qəbələ—Qyonqcu əməkdaşlığı genişlənir

*27 avqust 2017-ci il tarixdə Cənubi Koreyanın Qyonqcu şəhərində Azərbaycan, Avstraliya, Yaponiya, Fransa, Vyetnam, Braziliya, Slovakiya, İspaniya, Koreya, Çin, Tailand və Yeni Zelandiya olmaqla ümumilikdə 12 ölkədən 21 komandanın qatıldığı 13 yaşadək futbolçular arasında "Gyeongju 2017" beynəlxalq futbol turnirinə start verilib.*

Azərbaycan Respublikasının Qəbələ rayonu ilə Cənubi Koreyanın Qyonqcu şəhərləri arasında olan əməkdaşlıq çərçivəsində Qyonqcu meriyası tərəfindən dəvət olunan "Qəbələ" futbol akademiyasının 13 yaşadək olan futbol komandası ilə bərabər Qyonqcuya səfər edən nümayəndə heyətinə Qəbələ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov rəhbərlik edib. Nümayəndə heyəti Seul hava limanında qarşılandıqdan sonra Qyonqcu şəhərinə yola düşüblər.

Qyonqcu şəhərinin meri tərəfindən Konqres mərkəzində qarşılanan nümayəndə heyəti meriyanın qonağı olub. Şəhərin meri "qırmızı-qaralar"ı qəbul edib, onlara xüsusi diqqət göstərib. Daha sonra mərkəzin geniş zalında rəsmi açılış və komandaların təqdimat mərasimi keçirilib. Mərasimdə çıxış edən şəhər meri Qyonqçu və Qəbələ şəhərləri arasında olan əməkdaşlıq əlaqələrdən söz açaraq Qəbələ və Qyonqcu şəhərlər arasında olan əməkdaşlığı yüksək qiymətləndirib. Mərasimdə Azərbaycan Respublikasının Koreya Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Rəmzi Teymurov da iştirak edib. Mərasim konsert proqramı və ziyafətlə başa çatıb.

28 avqust 2017-ci il tarixdə Qyonqcu şəhər meriyasının inzibati binasında rayonumuzdan gedən nümayəndə heyəti ilə rəsmi görüş keçirilib. Görüşdə ölkələrimiz arasında münasibətlərin siyasi, iqtisadi, mədəni və digər sahələrdə yüksələn xətlə inkişafından məmnunluq ifadə edilib.

Görüşdə çıxış edən Qəbələ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov rayon icra hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin salamlarını toplantı iştirakçılarının diqqətinə çatdıraraq qədim tarixi olan Qəbələ və Qyonqcu şəhərləri arasında əlaqələrin mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb, müxtəlif istiqamətlər üzrə ikitərəfli əməkdaşlığın genişlənməsinin hər iki tərəf üçün faydalı olduğunu diqqətə çatdırıb.








Daha sonra tərəflər arasında hədiyyələrin təqdim edilməsi mərasimi keçirilib. Mərasimdə Azərbaycan Respublikasının Qəbələ rayonu ilə Koreya Respublikasının Qyonqcu şəhərləri arasında olan münasibətlərin qurulması istiqamətində xüsusi rolu olan SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının fəaliyyəti geniş qiymətləndirilib və şəhər meriyası tərəfindən bu təşkilata xatirə hədiyyəsi təqdim olunmuşdur.

Səfər çərçivəsində nümayəndə heyətimiz üçün şəhər meriyası tərəfindən infotur da təşkil edilib. Onlar Qyonqcu çəhərinin tarixi-mədəni məkanları və görməli yerləri ilə yaxından tanış olublar.

Qeyd etmək istərdik ki, E qrupunda çıxış edən "Qəbələ" futbol akademiyasının 13 yaşadək olan futbolçuları turnirdə 4 matç keçirib. Komandamız ilk oyununda Yaponiyanın "Nara" klubunu məğlub edib - 4:1. Ardınca İspaniyanın "Selta" və Koreyanın "Çonqyonq" klubları ilə görüşən "Qəbələ" hər iki matçda 0:2 hesabı ilə məğlub olub. Daha sonra futbolçularımız Yaponiyanın "İçinomiya" komandasına qalib gəlib - 3:2. Qrup mərhələsində "Selta" və "Çonqyonq" daha çox - 9 xal toplayıb. "Qəbələ" "İçinomiya" ilə eyni 6 xal toplasa da, daha yaxşı top fərqinə malik yaponiyalılar 3-cü olub. Qrup dördüncüsü olan "qırmızı-qaralar" turnirdə növbəti oyunlarında Yaponiyanın "Vejitto" və Tailandın BBC klubları ilə üz-üzə gəliblər.

**Zahir KƏRİMOV,**
**RİH-nin sektor müdiri.**

# Müəllimlərin ənənəvi sentyabr konfransı keçirilmişdir

*Sentyabr ayının 6-da Qəbələ rayon ümumtəhsil məktəbi müəllimlərinin ənənəvi konfransı keçirilmişdir. Konfransa ümumtəhsil məktəblərinin rəhbərləri, təhsil sahəsində fərqlənən ümumtəhsil məktəbi müəllimləri dəvət olunmuşdu. Konfransın işində Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini, ictimai siyasi və hümanitar məsələlər şöbəsinin müdiri Ətayə Osmanova, Təhsil Nazirliyinin əməkdaşı Əhliyyat Adıgözəlov,4 saylı ərazi Maliyyə-Hesablaşma Mərkəzinin işçisi Araz Babayev iştirak edirdi.*



Konfrans nümayəndələri öncə ulu öndər Heydər Əliyevin Qəbələ şəhərinin mərkəzindəki «Heydər parkı»nda ucaldılmış abidəsi önünə tər gül-çiçək dəstələri düzdülər, ümummilli liderin əziz xatirəsinə ehtiramlarını nümayiş etdirdilər.





Qəbələ şəhər 5 saylı tam orta məktəbin akt zalında baş tutan konfransı rayon təhsil şöbəsinin müdir əvəzi Yaşar Nəzirov açdı. Dövlət himni səsləndikdən sonra təhsil şöbəsinin müdiri əvəzə Yaşar Nəzirov «2016-2017-ci dərs ilinin yekunları və yeni dərs ilində təhsil işçilərinin qarşısında duran vəzifələr barədə» məruzə etdi **(məruzə qəzetimizin bu sayında ixtisarla dərc olunur).**

Gündəlikdə duran məsələ ilə əlaqədar Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova, Nohurqışlaq kənd tam orta məktəbin müəllimi Fazil Atakişiyev, Vəndam qəsəbə 2 saylı tam orta məktəbin müəllimi Elmira Mustafayeva, Soltannuxa kənd tam orta məktəbin məzunu, olimpiada qalibi Elsun Rzayev, Vəndam qəsəbə 1 saylı tam orta məktəbin direktor müavini Ruslan İsmayılov, Tüntül kənd tam orta məktəbin məzunu İmran Nəzirli, rayon gənclər və idman idarəsinin əməkdaşı Mübariz Ağayev, Azərbaycan Respublikası Təhsil Nazirliyinin nümayəndəsi Əhliyyət Adıgözəlov, 4 saylı ərazi maliyyə hesablaşma mərkəzinin işçisi Araz babayev çıxış etdilər.

Təhsil şöbəsi metokabinetinin müdiri Arifə Bayramova konfransın qərar layihəsini iştirakçıların müzakirəsinə təqdim etdi. Qərar layihəsi qəbul edildikdən sonr təhsildə fərqlənən bir qrup müəllim və məzunlara fəxri fərmanlar, diplomlar və hədiyyələr təqdim olundu.

Konfrans iştirakçıları tərəfindən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət qəbul edildi.

Bununla da Qəbələ rayon müəllimlərinin ənənəvi sentyabr konfransının plenar iclası öz işini başa çatdırdı. Konfransın bölmə iclasları sentyabrın 7-də keçirildi.